# Bakı Avropa Liseyi – gələcəyi yaradanların məkanı



Zülfiyyə Veysova:

## “Hər bir uşaq xüsusidir və onların istedadlarının üzə çıxarılması vacibdir”

Bu liseyin məzunları arasında nazir, müxtəlif dövlət qurumlarında, beynəlxalq təşkilatlarda vəzifə sahibi olanlar da var, dünyanın ən nüfuzlu ali məktəblərində təhsil alanlar, alim, yüksək hazırlığa malik mütəxəssis olaraq çalışanlar da. İlon Maskın sahibi olduğu “Space X” şirkətində kibertəhlükəsizlik mühəndisi vəzifəsində işləyən, insanların Marsa ilk uçuşunun təhlükəsizliyini təmin edən, eləcə də eyni sinifdən istedadlı 2 məzunun Prinston Universitetinə qəbul alan, onlardan yalnız 1-ni seçməkdə belə çətinlik çəkən universitet nümayəndələrinin heyrətlə qarşıladığı və daha neçə-neçə öz uğur hekayəsini yazmış məzunlar məhz Elm və Təhsil Nazirliyinin tabeliyində olan Bakı Avropa Liseyinin yetirmələridir.Və bu liseydən söz düşəndə, ilk növbədə, onun fərqli təhsil mühiti, yenilikləri və innovasiyanı özündə birləşdirən, elmlə təhsilin vəhdətinin ən gözəl nümunəsi gözlərimizin önündə canlanır. Bəli, hər dəfə uğurlu nəticələri ilə Azərbaycanın təhsil tarixinə parlaq səhifələr yazan Bakı Avropa Liseyi istedadlı uşaqlar üçün yüksək keyfiyyətli və hərtərəfli təhsil təmin edən innovativ məktəbdir. Lisey şagirlərin fərdi potensialını reallaşdırmasına, təhsil nailiyyətlərinə, şəxsi inkişafına stimul yaradır, onları gələcəyə hazırlayır və ömürboyu öyrənmək həvəsi aşılayır. Bir-birindən maraqlı müxtəlif layihələri, eyni zamanda 30 illik bir yol keçmiş Fənlərarası Təlim Proqramı (FAT) ilə İLKlərə imza atan Bakı Avropa Liseyinə budəfəki gəlişimizin səbəbi də təhsil ocağının direktoru psixologiya üzrə fəlsəfə doktoru, “Tərəqqi” medallı, Əməkdar müəllim, təhsil üzrə beynəlxalq məsləhətçi Zülfiyyə Veysova ilə keçilən yola nəzər salmaq idi.

### “Avropa məktəbi” pedaqoji modelini qurduq”

*- Zülfiyyə xanım, Azərbaycanın ən qabaqcıl orta təhsil müəssisələrindən sayılan Bakı Avropa Liseyinin yaradıcılarından birisiniz. Arzuladığınız təhsil modelini burada həyata keçirmək çətin olmadı ki?*

- Bilirsiniz, bu həyatda asan heç nə əldə olunmur. Xüsusilə təhsil elə bil sahədir ki, burada inqilab etmək olmaz. Hər bir məsələ ən xırda detallarına qədər öyrənilməli və onun təhsilimizə nə qədər faydalı olacağı diqqətlə araşdırılmalıdır. Və biz Avropa Liseyini yaradanda da bilirdik ki, onun Azərbaycan təhsilində öz dəst-xətti olacaq. Beləliklə, Avropa məktəblərinin təcrübəsini özündə əks etdirən və Azərbaycanın mövcud şəraitinə uyğunlaşdırılmış “Avropa məktəbi” pedaqoji modelini qurduq.

Bakı Avropa Liseyinin təhsil fəlsəfəsi şagirdlərin intellektual və şəxsi keyfiyyətlərinin ahəngdar inkişafı ehtiyacına əsaslanır. Onların Azərbaycan xalqının milli adət-ənənələri çərçivəsində tərbiyə olunmasına böyük diqqət yetirilir. Eyni zamanda, uşaqlar ümumi Avropa mədəniyyətinə, incəsənətinə, ədəbiyyatına hörmət edir və fəal şəkildə yiyələnirlər.

### “Hər bir uşaq xüsusidir”

*- Təhsil müəssisəsinin əsas yanaşmaları nədir?*

- Bakı Avropa Liseyində tədris prosesi hər bir şagirdin şəxsiyyətinə fərdi yanaşmaya əsaslanır. Bütün şagirdlərimiz məktəbin və cəmiyyətin inkişafına müsbət töhfə vermək üçün bərabər potensiala malik unikal şəxsiyyətlər kimi qiymətləndirilir. Bizim üçün bir meyar var: Hər bir uşaq xüsusidir və hər birinin istedadını üzə çıxarıb inkişaf etdirmək vacibdir.

Liseyin əsas missiyası istedadlı uşaqlara yüksək keyfiyyətli, hərtərəfli təhsil verməkdir və hər bir şagirdin özünəməxsus potensialını reallaşdırmağa, akademik uğurlara, intellektual və şəxsi nailiyyətlərə nail olmasına, XXI əsrin səriştələrinə yiyələnməsinə şərait yaratmaqdır. Liseyin məzunları həyatları boyu öyrənməyi bacarmalı, həmçinin gələcək müstəqil fəaliyyətə, karyeraya və dəyişən dünyada həyata hazır olmalıdırlar.

### “İnnovativ və fənlərarası öyrənmə mühiti yaradırıq”

*- Tədris prosesi necə həyata keçirilir?*

- Şagirdlərimiz üçün yüksək gözləntilərlə dəstəkləyici və təhlükəsiz, hörmətli və ruhlandırıcı, stimullaşdırıcı, innovativ və fənlərarası öyrənmə mühiti yaradırıq. Bu mühit istedadlı uşaqların intellektual, yaradıcı və şəxsi potensialının üzə çıxarılmasını, onların fərdi qabiliyyət və istedadlarının inkişafını təmin edir. Liseyin tədris mühiti şagirdlərin yaradıcı axtarışını, qarşıya qoyulmuş məqsədə çatmaq üçün müstəqil və komandada işləmək bacarığını stimullaşdırır. Tənqidi düşüncə və liderlik bacarıqlarının inkişafına çox diqqət yetirilir. Onların öz səriştələrini müxtəlif üsullarla nümayiş etdirmələri, məktəbdən kənarda öyrənmə imkanlarının genişləndirilməsi üçün şərait yaradılır.

### “Qəbul imtahan, psixoloji test vasitəsilə həyata keçirilir”

*- Liseyə şagird, eləcə də müəllim qəbulu necə aparılır?*

- Liseyə şagird, müəllim qəbulu imtahanla, eyni zamanda xüsusi hazırlanmış psixoloji test vasitəsilə həyata keçirilir. Bizim ailəmizə daxil olan hər bir kəs ilk andan fərqli təhsil mühitini görür. Avropanın, Amerikanın, Rusiyanın təhsildəki ən mütərəqqi ideyaları əsasında Azərbaycan mühitinə uyğunlaşdırılmış təhsil modeli öz uğurlu nəticələrini verməkdədir. 1991-ci ildə fəaliyyətə başlayan Lisey-də hazırda Azərbaycan və rus bölmələri üzrə 1750 şagirdin təlim-tərbiyəsi ilə 110 müəllim məşğul olur. Biz ən istedadlı uşaqlarla işləyirik. Onlara dərs deyən müəllimlər də ən peşəkar, yüksək bilik və kompetensiyalara malik təhsil işçiləridir.

### “Liseyimizdə elm və təhsilin vəhdətini uğurla qurmuşuq”

*- Bu günlərdə fəaliyyətinin 30 illiyini qeyd etdiyiniz Fənlərarası Təlim Proqramı (FAT) Bakı Avropa Liseyinin artıq vizit kartına çevrilib. Deyə bilərikmi, Bakı Avropa Liseyinin uğurunda FAT proqramı önəmli rol oynayır?*

- Fənlərarası Təlim Proqramı dünya təcrübəsində elmi cəhətdan təsdiq olunmuş və istedadlı uşaqlara yönəlmiş tədris prinsipləri əsasında yaradılıb. Proqramın müəllifləri dünyada tanınmış psixoloq, Cənubi Kaliforniya Universitetinin professoru Sandra Kaplan və rusiyalı alim psixologiya elmləri doktoru, professor Natalya Şumakovadır.

İnnovativ, inkişafedici Fənlərarası Təlim Proqramı ilə tanış olarkən bunun arzuladığım bir təhsil modeli olduğunu gördüm. Başa düşdüm ki, FAT bizim istedadlı uşaqlarımızın inkişafı üçün lazımlı bir proqramdır. Və biz istedadlı uşaqların təlimini birinci sinifdən başlamağı qərara aldıq. Beləcə, 1993-cü ildən Liseyimizdə Fənlərarası Təlimin tətbiqinə başlanıldı. Bizim 12 təhsil işçisimiz FAT proqramını tədris edir ki, onlardan da 3-ü alimdir. Liseyimizdə artıq neçə illərdir ki, elmlə təhsilin vəhdətini uğurla qurmuşuq. Bu proqramdan bəhrələnən uşaqlarımız Azərbaycanın gələcək intellektual elitasıdır. Biz elə uşaqlar yetişdiririk ki, bu istedadlar hansısa fənni yaxşı bilmələri ilə deyil, bütövlükdə müxtəlif bilik yarışlarında uğur qazanmaları, yüksək idraki təfəkkürləri ilə seçilirlər. Yəni, bizim məzunlar harada olmaqlarından, hansı şəraitdə fəaliyyət göstərmələrindən asılı olmayaraq, əldə etdikləri XXI əsr kompetensiyaları onları lider və ya aparıcı mütəxəssis, çox effektiv bir işçi olaraq tanıdır.

### “FAT 30 il ərzidnə liseyimizdə uğurla tətbiq olunub”

*- Zülfiyyə xanım, FAT kimlər üçün nəzərdə tutulub və bizim şagirdlərimizə nə verir?*

- Öncə qeyd edim ki, FAT inteqrativ təhsil yanaşmasının ən mürəkkəb və ən müasir proqramlarından biridir. Və mən çox sevinirəm ki, bu proqramı Azərbaycana gətirməklə, onun tətbiqini Liseyimizdə həyata keçirməklə bir çox uğurlara imza atmışıq.

Bu proqramın müvəffəqiyyətlərindən biri də şagirdlərimizdə I sinifdən başlayaraq XXI əsrin kompetensiyalarının formalaşdırılmasıdır. Onu da qeyd edim ki, cəmi 3 ölkədə (ABŞ, Rusiya Federasiyası və Azərbaycanda) həyata keçirilən FAT proqramı 30 il ərzində liseydə çox böyük müvəffəqiyyətlə tətbiq olunub və bunun nəticələrini məzunlarımızın yüksək nailiyyətlər əldə etməsində görmək olar.

Bilirsiniz ki, Bakı Avropa Liseyində istedadlı şagirdlərə yönəlmiş təlim məzmununun və xüsusi inkişafetdirici təlim mühitinin yaradılması prosesi həyata keçirilir. Bunun əsasını da FAT Proqramı təşkil edir. Proqram vasitəsilə şagirdlərin şəxsiyyətinin, onların XXI əsrin kompetensiyalarının və metakoqnitiv bacarıqlarının inkişafına yönəlmiş, qabiliyyətlərinin üzə çıxarılmasına dəstək verən təhsil yanaşması tətbiq olunur.

Fənlərarası inkişafetdirici təlim proqramı məktəbin baza proqramını asanlıqla qavrayan və yaşıdlarından intellektual cəhətdən daha çox fərqlənən uşaqlar üçün nəzərdə tutulub. Proqram I-IX siniflərdə keçirilir. Əsas məqsədi istedadı uşaqların xüsusi idrakı tələbatlarının ödənilməsindən, onların yaradıcı potensialının və intellektual səviyyələrini təmin edəcək şəraitin yaradılmasından ibarətdir. Eyni zamanda proqram istedadlı uşaqların şəxsi keyfiyyətlərinin formalaşmasını, onların həyata səmərəli uyğunlaşmalarını və müvəffəqiyyət qazanmalarını təmin edir.

Proqram özündə tematik fənlərarası inteqrasiya konsepsiyasına əsaslanan təlimi əks etdirir. Bu növ inteqrasiyanın əsasını təbiətdə, cəmiyyətdə, insan həyatında və onun yaratdığı əşyalarda mövcud olan ümumi, fəlsəfi qanunauyğunluqlar təşkil edir.

FAT inkişafetdirici proqramın tədrisi zamanı dünyanın tam mənzərəsi və uşaqların qlobal düşüncəsinin inkişafı, yaradıcı, tənqidi və məntiqi təfəkkürün, problemi həlletmə bacarıqlarının inkişafı, biliklərin sərbəst əldə olunması, elmi-tədqiqat bacarıq və vərdişlərinin, birgə işləmək bacarıqlarının formalaşdırılması, özünüdərketmə bacarığının inkişafı, müsbət “mən konsepsiya” sının formalaşdırılması, insan varlığının dəyər və unikallığının anlamı kimi məsələlər diqqətdə saxlanılır. Bu məsələlərin həlli xüsusi şəkildə qurulmuş məzmun və metodlar vasitəsilə təmin edilir.

FAT-da məzmunun öyrənilməsi özündə fənlərarası xarakter daşıyır və müxtəlif elmlər kontekstində hər hansı böyük bir fəlsəfi mövzunun araşdırılmasını tələb edir.

Qlobal problemlər tədris prosesi zamanı bir sıra bilik sahələrinə aid fənlərarası ümumiləşdirmələr vasitəsilə açıqlanır. Müxtəlif fənlərdə öyrənilən çoxsaylı informasiya və faktlar şagirdlər tərəfindən bu qlobal ideyaların kəşf edilməsinə, araşdırılmasına, onların isbat sonradan inkişaf və ya inkar edilməsinə səbəb olur. Təlim prosesində şagirdlər müxtəlif elm sahələrindəki biliklərdən qazandıqları məlumat və faktları ortaya qoyulması, təhlili əsasında verilmiş mövzu üzrə fəlsəfi ümumiləşdirmələri sərbəst şəkildə üzə çıxarırlar.

Onu da deyim ki, fənlərarası ümumiləşdirmələr çoxsaylı tədris fənlərini zəncirvari birləşdirməyə imkan yaradır; Müxtəlif elm sahələrindəki mövzuları inteqrasiya edərək səmərəli şəkildə öyrədir və bununla bağlı təhsil məzmununun tamlığını təmin edir.

Tədris olunan fənlər bu zaman öz spesifikasını itirmir, “yoxa çıxmır”. Şagirdlər bir tərəfdən fənlərarası ideyaların kəşfinə və isbatına öz töhfələrini verir, digər tərəfdən tədris zamanından səmərəli istifadə və fənlərarası kursun zəngin məzmunu sayəsində öz “bilik xəzinəsi”nə yeni ideyalar, kəşflər toplayır.

Artıq FAT Proqramının 600-ə yaxın məzunu var. Proqramın 30 illik fəaliyyətində dönüb geriyə baxsaq, qürurla deyə bilərik ki, bizim yeniyetmələr Azərbaycanın gələcəyini quranlardır. Biz onlara güvənirik və görürük ki, onlar harada olmalarından asılı olmayaraq orada yenilik edir, diqqətləri öz üzərlərinə çəkməyi bacarırlar. Çünki bizim Liseyin özəlliklərindən biri də lider yetişdirməkdir ki, düşünürəm, biz buna nail olmuşuq.

**Samirə KƏRİMOVA**

Azərbaycan müəllimi.- 2024.- 3 may, №13.- S.5.